# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ

i m t a h a n   i ş t i r a k ç ı s ı n ı n

# YADDAŞ KİTABÇASI

(xarici dil üzrə fəlsəfə doktoru imtahanı,
əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanı)

Aşağıdakıları imtahana gətirmək qadağandır:



imtahan binasına giriş zamanı üzərində mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, konspekt və başqa yardımçı vasitələr aşkar olunan imtahan iştirakçıları barədə akt tərtib olunur, bu vasitələr və onların imtahan sənədləri götürülür və onlar imtahan binasına buraxılmırlar.

2024

**Hörmətli iştirakçı!**

Mövcud məlumatlara əsasən COVID-19 insanlar arasında birbaşa hava-damcı yolu ilə və ya dolayı yolla kontaminasiya olunmuş səthlərə təmasdan sonra əllərlə ağız boşluğuna, gözlərə, buruna və s. toxunduqda ötürülür.

**Bu virusa yoluxmamaq üçün aşağıdakılara əməl etməyiniz tövsiyə olunur:**




## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan binasına gəlin (imtahan binası, imtahanın tarixi və vaxtı haqqında məlumat imtahana buraxılış vərəqəsində göstərilmişdir).
2. Özünüzlə tünd qara və ya göy rəngdə yazan diyircəkli qələm və HB sərtliyində sadə karandaş, qələmyonan və pozan götürün.
3. İmtahana gələrkən aşağıdakı sənədləri gətirməyi unutmayın:
   - **şəxsiyyəti təsdiq edən sənəd** (Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər icazə vəsiqələrini və pasportlarını, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədləri və icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri isə qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;),
   - **imtahana buraxılış vərəqəsi;**
4. **Aşağıdakı hallarda iştirakçı imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmış gəldikdə;
   - imtahana içkili vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
5. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.

## NAMİZƏDİN İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:

1. İmtahan zalında imtahana buraxılış vərəqəsində göstərilən sıra və yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləyin. Aydın olmadıqda əlinizi qaldırıb nəzarətçiyə müraciət edin.
2. İzahat işi qurtardıqdan sonra sizə üzərində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmiş cavab kartı verilir. Cavab kartını tünd qara və ya göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələmlə (və ya sadə karandaşla) doldurun. Cavab kartındakı məlumatlar optik qurğu vasitəsilə oxunur. Ona görə də cavab kartı ilə işləyərkən ehtiyatlı olun. Dairələri tam qaralayın, kartın əks üzünün qabarmaması üçün qələmi bərk basmayın. Kartı əzmək, ləkələmək, zədələmək olmaz.

**DİQQƏT! Korlanmış cavab kartı dəyişdirilmir.**

3. Cavab kartının 1-ci bölməsində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmişdir. Özünüz haqqında çap edilmiş həmin məlumatları yoxlayın. Uyğunsuzluq aşkar etdikdə mütləq nəzarətçiyə müraciət edib məsələyə aydınlıq gətirin. 2-ci bölmədə özünüz haqqında məlumatı yazın və bu bölmədəki qaydalara zidd hərəkətə yol verməyəcəyiniz barədə bəyannamə ilə tanış olun. Cavab kartında çap edilmiş məlumatların düzgünlüyünü və bəyannamə ilə tanış olduğunuzu öz imzanızla təsdiq edin. 3-cü bölmədə Sizə veriləcək sual kitabçasının variantı qeyd olunmuşdur.

   Cavab kartının arxa üzündə iş nömrəsinin kodlaşdırılması üçün ayrılmış bölmədə iş nömrənizin hər bir rəqəmini sol xanadan başlayaraq rəqəmlərin cavab kartındakı nümunədə göstərilən şablonuna uyğun olaraq yazın. Sonra hər damanın altındakı sütunda uyğun rəqəmi tapıb, onun yerləşdiyi dairəni tam qaralayın. Bu zaman diqqətli olun: hər sütunda yalnız bir dairə qaralanmalıdır. Bu bölmədə həmçinin soyadınızı və adınızı müvafiq sətirlərə yazıb, son sətirdə isə yenidən imza atın.
4. Sonra Sizə üzərində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmiş sual kitabçaları paylanır. Üzərindəki bəyannamə ilə tanış olun və soyadınızı, adınızı və atanızın adını yazıb imzalayın. Təqdim olunan sual kitabçasının üzərindəki soyad, ad və ata adı sizə məxsus deyilsə, dərhal nəzarətçiyə müraciət edin. Belə ki, imtahan nəticələriniz qiymətləndirilərkən cavablarınız üzərində sizin soyadınız, adınız və atanızın adı çap edilmiş və cavab kartınızda göstərilmiş varianta uyğun sual kitabçasının doğru cavabları ilə müqayisə ediləcəkdir. Sual kitabçasının sizə düzgün təqdim olunduğunu yəqinləşdirin.

   Nəzarətçi sual kitabçalarını açmağa icazə verdikdən sonra onu vərəqləyərək çap qüsurlarının olub-olmadığını yoxlayın. Belə qüsurlar varsa, nəzarətçiyə müraciət edin.
5. **İmtahanın müddəti 2 saat 30 dəqiqədir.** İmtahan müddətinin **ilk 1 saat 30 dəqiqəsi** test tapşırıqlarının cavablandırılmasına, son **1 saatı** isə **yazılı tapşırığın yerinə yetirilməsinə** *(vizual məlumatın yazılı təsviri üçün )* ayrılır.
6. İmtahanın başlanması elan edilən andan test tapşırıqlarının cavablandırılması üçün ayrılan **1 saat 30 dəqiqəlik** vaxtdan səmərəli istifadə edin. Cavabların cavab kartında qeyd olunması üçün sərf olunan vaxt da bu müddətə daxildir. Sizə 30 test tapşırığı təqdim olunur. Test tapşırıqları sual kitabçasında aşağıdakı ardıcıllıqla verilir: 1-25-ci tapşırıqlar qapalı formalı (o cümlədən 1-10-cu tapşırıqlar dinləyib-anlama bacarığını yoxlayan 1 ədəd monoloq və 1 ədəd dialoq əsasında qapalı formalı, 11-20-ci tapşırıqlar oxuyub-anlama mətni əsasında təqdim olunan qapalı formalı, 21-25-ci tapşırıqlar qapalı formalı leksik-qrammatik tapşırıqlar), 26-30-cı tapşırıqlar açıq formalı leksik-qrammatik tapşırıqlardır (o cümlədən 26-28-ci tapşırıqlar maksimum 4 elementdən (rəqəmdən) ibarət olan seçim tipli, 29-cu tapşırıq maksimum 6 elementdən (rəqəmdən) ibarət olan ardıcıllıq tipli, 30-cı tapşırıq isə uyğunluq tiplidir).
7. Cavab kartının cavablar üçün ayrılmış hissəsi sual kitabçasındakı sualların ardıcıllığına uyğun olaraq sıralanmışdır. **Sual kitabçasında:**

   **1) 1-25 saylı qapalı formalı test tapşırıqlarının** hər birinə verilmiş 5 cavabdan düzgün hesab etdiyiniz bir cavabı seçin. Cavab kartında müvafiq sualın nömrəsini tapın və nömrənin qarşısında seçdiyiniz cavaba uyğun olan dairəni tam qaralayın. *Əgər bir suala cavab olaraq iki və daha çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir.*

   **2) 26-29 saylı açıq formalı test tapşırıqlarının** hər birinin cavabını (rəqəmlər ardıcıllığını) bu cavab üçün nəzərdə tutulmuş damalara sol xanadan başlayaraq nümunədə göstərilən şablona uyğun olaraq yazın. Sonra hər damanın altındakı sütunda uyğun rəqəmi tapıb onun yerləşdiyi dairəni tam qaralayın. *Əgər eyni bir sütunda birdən çox dairə qaralanarsa, onda cavab səhv hesab edilir.*

   **3) 30 saylı açıq formalı test tapşırığında** isə təqdim edilmiş 2 siyahının elementləri arasındakı uyğunluqları müəyyən edin və cavab kartında 1-ci siyahının hər bir elementinin nömrəsinə müvafiq sütunda 2-ci siyahının uyğun elementlərinə aid dairələri tam qaralayın.

   Test tapşırıqları üzrə ballarınız hesablanarkən yalnız cavab kartınızda qeyd etdiyiniz cavablar nəzərə alınır. Sual kitabçasında aparılan qeydlər heç bir hüquqi əhəmiyyət kəsb etmir.

**DİQQƏT! Cavabları cavab kartında kodlaşdırarkən yuxarıda göstərilən qaydalara riayət edin. Cavabların cavab kartında kodlaşdırılması ilə əlaqədar apellyasiya müraciətlərinə baxılmır.**

Hər bir sualın düzgün cavabı bir balla qiymətləndirilir. Səhv cavablar ümumi nəticəyə təsir göstərmir. Test tapşırıqları üzrə toplanıla biləcək maksimal bal 30-a bərabərdir.

8. Nəzarətçi imtahanın başlanmasını elan etdiyi anda dinləmə mətninin olduğu audioqurğunu da işə salır. Qurğudakı dinləmə mətninin olduğu audiofayl səsləndirilən zaman audiotəlimatçı öncə Sizə *birinci* dinləmə mətni *(monoloq)* üzrə sual kitabçasında təqdim olunan (1-5-ci) tapşırıqlarla tanış olmaq üçün 2 dəqiqə vaxt verir. Mətnin *(monoloqun)* ilk dəfə səsləndirilməsindən sonra audiotəlimatçı Sizə bu mətnə dair tapşırıqlarla bir daha tanış olmaq üçün yenə 2 dəqiqə vaxt verir. Sonra mətn ikinci dəfə səsləndirilir. Bundan sonra həmin mətn üzrə tapşırıqları cavablandırmaq üçün daha 8 dəqiqə vaxt verilir. Bu vaxt qurtardıqdan sonra audiotəlimatçı *ikinci* dinləmə mətni *(dialoq)* üzrə təqdim olunan (6-10-cu) tapşırıqlarla tanış olmaq üçün 2 dəqiqə vaxt verir. Bundan sonra *ikinci* dinləmə mətni *(dialoq)* ilk dəfə səsləndirilir. Mətnin *(dialoqun)* ilk dəfə səsləndirilməsindən sonra audiotəlimatçı Sizə bu mətnə dair tapşırıqlarla bir daha tanış olmaq üçün yenə 2 dəqiqə vaxt verir. Sonra mətn *(dialoq)* ikinci dəfə səsləndirilir. Bundan sonra qalan vaxt ərzində Siz həm dinləmə mətnləri üzrə təqdim olunan tapşırıqları, həm də digər tapşırıqları cavablandırırsınız.

<table>
<tr><td rowspan="2">Birinci dinləmə mətni (monoloq) üzrə səsləndirmə</td><td>1-5-ci tapşırıqlarla tanışlıq</td><td rowspan="2">mətn ilk dəfə səsləndirilir</td><td>1-5-ci tapşırıqlarla bir daha tanışlıq</td><td rowspan="2">mətn ikinci dəfə səsləndirilir</td><td>Bu tapşırıqlar üzrə cavablandırma yekunlaşdırılır</td></tr>
<tr><td>2 dəqiqə</td><td>2 dəqiqə</td><td>8 dəqiqə</td></tr>
</table>

<table>
<tr><td rowspan="2">İkinci dinləmə mətni (dialoq) üzrə səsləndirmə</td><td>6-10-cu tapşırıqlarla tanışlıq</td><td rowspan="2">mətn ilk dəfə səsləndirilir</td><td>6-10-cu tapşırıqlarla bir daha tanışlıq</td><td rowspan="2">mətn ikinci dəfə səsləndirilir</td><td rowspan="2">Qalan vaxt ərzində həm dinləmə mətnləri üzrə verilən tapşırıqlar, həm də digər tapşırıqlar cavablandırılır</td></tr>
<tr><td>2 dəqiqə</td><td>2 dəqiqə</td></tr>
</table>

**DİQQƏT!** Dinləmə mətnlərinin zalda 2 dəfədən az və ya 2 dəfədən çox səsləndirilməsi qadağandır.

9. Hesablamaları və qeydləri aparmaq üçün sual kitabçasında boş yerlər nəzərdə tutulmuşdur. Buna görə də əlavə kağızdan istifadə etməyə icazə verilmir.

10. İmtahan başlandığı andan **1 saat 30 dəqiqə sonra** test tapşırıqlarının cavablandırılması üçün ayrılan vaxtın başa çatdığı elan edilir. Cavab kartları və sual kitabçaları zal nəzarətçisi tərəfindən yığılır. Bundan sonra sizə yazı işi vərəqləri (vizual məlumatın təsviri üçün vərəqlər) paylanır. Siz vərəqdə təqdim olunan vizual məlumatı 150-180 sözdən ibarət yazıda təsvir etməlisiniz.

11. Vizual məlumatın təsvirini mürəkkəb axıtmayan, tünd qara və ya göy rəngli diyircəkli qələmlə yazın. Vizual məlumatı təsvir edərkən onun üçün nəzərdə tutulmuş hissədən kənarda qeydlər aparmaq olmaz. Yazı işi şərti kodlar əsasında anonim surətdə yoxlanıldığından vərəqdə imza atmaq, özünüzü tanıtmaq məqsədilə hər hansı işarə vurmaq, özünüz və ya yaxınlarınız, müəllimləriniz və s. barəsində məlumat yazmaq olmaz. Əks təqdirdə yazı işinə heç bir bal verilməyəcək və yazı işi "0" balla qiymətləndiriləcək.

12. Hər blok üzrə (dinləyib-anlama, oxu, leksik-qrammatik tapşırıqlar, yazı (vizual məlumatın təsviri)) toplana bilən maksimal bal 10-dur. Müsabiqə şərtinin ödənməsi üçün bloklar üzrə minimal bal tələbi 2-dir.

**DİQQƏT!** Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, imtahan nəticələriniz ləğv olunacaqdır.

**DİQQƏT!** Cavab kartının, yazı işi vərəqinin və sual kitabçasının qorunmasına və korlanmamasına Siz şəxsən məsuliyyət daşıyırsınız.

13. İmtahanın başlanması elan olunan andan etibarən **1 saat 30 dəqiqə müddətində və imtahanın son 15 dəqiqəsi ərzində** imtahan zalından çıxmaq qadağandır. Qalan vaxt ərzində imtahandan çıxan iştirakçılar yazı işi vərəqlərini də nəzarətçiyə təhvil verməlidirlər.

14. İmtahanın qurtarması elan olunduqda yazı işi vərəqinizi nəzarətçiyə təhvil verin.

15. Cavab kartının, yazı işi vərəqinin və sual kitabçasının təhvil verilməsinə görə iştirakçı şəxsən məsuliyyət daşıyır. İmtahan sənədlərini nəzarətçiyə təhvil verdikdən sonra imtahana buraxılış vərəqəsində nəzarətçiyə

imza etdirməlisiniz. Cavab kartını, yazı işi vərəqini və sual kitabçasını nəzarətçiyə təhvil verməsəniz, imtahan nəticələriniz ləğv olunacaqdır.

**İMTAHAN İŞTİRAKÇISINA QADAĞANDIR:**

- imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

**DİQQƏT!** İştirakçının imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə, bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.

**DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız, içməli su istisna olmaqla), siqaret gətirmək;
- sual kitabçaları paylandıqdan sonra, hər hansı bir səbəbə görə, imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının cavab kartına, yazı işi vərəqinə, sual kitabçasına baxmaq və ya öz cavab kartına, yazı işi vərəqinə, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq;
- “İmtahan başlandı” elan olunan andan **1 saat 30 dəqiqə müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində** səbəbindən asılı olmayaraq imtahan zalından çıxmaq;
- nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün müraciət etmək;
- cavab kartını, yazı işi vərəqini və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

Belə hallar aşkar olunarsa, həmin iştirakçı imtahandan xaric olunacaq və onun imtahan nəticələri ləğv olunacaqdır. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

DİM-in iştirakçının imtahan qaydalarına zidd hərəkətini imtahandan sonra da aşkar etmək üçün müxtəlif üsulları vardır. İştirakçı öz üzərinə götürdüyü öhdəlikləri pozduqda və xüsusi araşdırmalar nəticəsində müəyyən pozuntular (saxta sənəd təqdim etmə, köçürmə, köçürməyə şərait yaratma, imtahana öz yerinə başqasını göndərmə, sual kitabçasını aparma, qaydalara zidd hərəkətlərə və digər saxtakarlıqlara yolvermə) aşkar edildikdə onun imtahan nəticələrinin ləğv olunması və haqqında müvafiq inzibati-hüquqi tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Unutmayın ki, Siz cavab kartının 2-ci bölməsində belə hallara yol verməyəcəyiniz barədə öz üzərinizə öhdəlik götürərək bəyannamə imzalayırsınız.

Əgər imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin və ya DİM nümayəndəsinin zala gəlməsini tələb edin.

Nəzarətçi müəllimlər qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. İmtahanın başlandığı elan edildikdən sonra Sizin onlara sual verməniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin. İmtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərə baxılmır.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***